# Görkəmli elm xadimi, oftalmoloq-alimin xatirəsi yad edildi

**28 aprel 2021-ci il tarixdə Dövlət Sərhəd Xidmətində görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümü münasibəti ilə tədbir keçirilmişdir.**



Dövlət Sərhəd Xidmətinin qadın hərbi qulluqçuları Fəxri Xiyabanda Zərifə xanım Əliyevanın əziz xatirəsini böyük ehtiramla yad edərək məzarı önünə tər çiçək dəstələri düzmüşlər.

Dövlət Sərhəd Xidmətinin Aparatında dünya şöhrətli alim Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən sərgi nümayiş etdirilmiş, istedadlı alim, bacarıqlı pedaqoq, qayğıkeş ana olan Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti barədə məlumat verilmişdir.

Tədbirdə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olan Zərifə xanımın elm üçün gözəl tədqiqatçı, övladlarına qayğıkeş valideyn və nənə olması qeyd edilmişdir. Novator alimin dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir alim və həkim üçün həyat, mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

Zərifə xanımın oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. 150-dən artıq elmi əsəri, 10 monoqrafiyası, göz xəstəlikləri üzrə elmi-tədqiqat işləri akademik Zərifə xanım Əliyevaya böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdır.

Tədbirdə görkəmli alim, nəcib insan olan Zərifə xanımın xatirəsinin qədirbilən xalqımızın yaddaşında əbədi yaşayacağı qeyd edilmişdir.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

Respublika.- 2021.- 29 aprel.- S.6.